www.sesqazeti.az
facebook Ses Media Holding
səs

# Tərtərdə milli mətbuatın 140 illiyi qeyd olunub



Dünən Tərtər rayon icra hakimiyyəti və YAP Tərtər rayon təşkilatının birgə təşkilatçılığı ilə Azərbaycan Milli Mətbuatının yaradılmasının 140 illik yubileyi münasibəti ilə tədbir keçirilib. Tədbir iştirakçıları öncə Ulu Öndərin rayonun Heydər Əliyev mərkəzində ucaldılmış büstü önünə gül-çiçək dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.

Tədbiri giriş sözü ilə açan YAP Tərtər rayon təşkilatının sədri, rayon icra hakimiyyəti başçısının birinci müavini Ramiz Şabanov qeyd etdi ki, düz 140 il bundan qabaq Azərbaycanın görkəmli oğlu Həsənbəy Zərdabi tərəfindən "Əkinçi" qəzetinin çap olunması ilə əsası qoyulan Azərbaycan Milli Mətbuatı ötən dövr ərzində müxtəlif ictimai-siyasi formasiya şəraitində fəaliyyət göstərmişdir: "Milli Mətbuatımızın inkişafında hər cür çətinliklər və qadağalar yaradılsa da Azərbaycan mətbuatı öz milliliynə söykənərək, inkişaf yolu keçib gəlmişdir. 70 il Sovet hakimiyyəti illəri dövründə mətbuat üzərində ciddi senzuranın mövcudluğu mətbuatın və jurnalistikanın azad şəkildə inkişafına maneçilik törədirdi. 1991-ci ildə öz müstəqilliyini elan edən Azərbaycan Respublikasında mətbuatın da milli zəmin üzərində inkişafına şərait yaradılsa da, yalnız Ulu Öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra milli mətbuatımızın əsl inkişaf yoluna qədəm qoyması üçün hərtərəfli şərait yaradıldı. 1998-ci ildə mətbuat üzərindən sensuzranın ləğvi, nəşr olunan qəzet və jurnalların sayının artması, mətbuatın fəaliyyətinin tənzimləyən qanunların və qanunverici normativ aktların qəbulu Azərbaycanda güclü jurnalist ordusunun formalaşmasına xidmət etdi. Bu gün Ümummilli Liderin milli mətbuatın inkişafı konsepsiyasını daha da genişləndirən möhtərəm Prezident İlham Əliyev tərəfindən Azərbaycan mətbuatına və jurnalistlərinə göstərilən dövlət qayğısının yeni mərhələyə çatdırılması ölkəmizdə fikir müxtəlifliyi, azad söz, demokratik mühitin mövcudluğunu təmin etmişdir. Dövlət tərəfindən dünya təcrübəsində mövcud olmayan, jurnalistlərə təmənnasız olaraq yaşayış evlərinin tikilərək verilməsi, mətbu orqanlara dövlət tərəfindən maddi və mənəvi dəstəyin göstərilməsi bir daha sübut edir ki, Azərbaycan dövləti öz milli mətbuatının daim inkişafı üçün bütün lazımi tədbirləri həyata keçirməkdədir".

Tədbirdə Qapanlı kənd tam orta məktəbin direktoru Fitat Əliyeva, rayon uşaq xəstəxanası ərazi ilk partiya təşkilatının sədri Hicran Rəhimli, rayon mədəniyyət evinin direktoru Telman Məmmədov, qocaman jurnalist, rayon Ağsaqqallar Şurasının sədri Qədir Allahverdiyev, rayon icra hakimiyyəti başçısının Tərtər şəhər İƏD üzrə nümayəndə, ərazi ilk partiya təşkilatının sədri Sahib Həsənov, "Yeni Tərtər" qəzetinin redaktoru Tofiq Yusif və başqaları Azərbaycan Milli Mətbuatının artıq 140 illik yol keçdiyini və bu yolun böyük və şərəfli olduğunu, bütün dövrlərdə qabaqcıl ideyaların carçısı olduğunu vurğulayıblar.

Tədbirin sonunda "Yeni Tərtər" qəzeti kollektivinin üzvləri YAP Tərtər rayon təşkilatı və rayon icra hakimiyyəti tərəfindən pul və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

**R.HÜSEYNOVA**